


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 79 (23.966)

*29 aprel 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib.

Dövlətimizin başçısına "Zərifə Əliyeva" gəmi-bərəsi barədə məlumat verilib. Bildirilib ki, gəmi-bərənin layihəsi ötən ilin əvvəlində istismara verilən "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə eynidir. "Azərbaycan" və "Zərifə Əliyeva" gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən rəmzi lenti kəsib.

Xatırladaq ki, gəmi-bərənin "Zərifə Əliyeva" adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir. Gəmi-bərə ilə tanış olan Prezident İlham Əliyev daha sonra onun işə salınmasını bildirən düyməni basıb.

***

Prezident İlham Əliyev aprelin 28-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul edib.




## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü münasibətilə tədbirlər keçirilib

*AMEA Naxçıvan Bölməsində muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan görkəmli alim, tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın anadan olmasının 99-cu ildönümü münasibətilə interaktiv dərs olub.*

Dərsi bölmənin Bioresurslar İnstitutunun Biokimyəvi tədqiqatlar laboratoriyasının rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Surə Rəhimova aparıb.

Tədqiqatçı məktəblilərə əvvəlcə akademikin mənalı ömür yolu haqqında məlumat verib, vurğulayıb ki, zəhmətsevərliyi, səmimiliyi, yüksək intellekti ilə insanların rəğbətini qazanan böyük alimin şəxsiyyətində doğma Vətənə, xalqa bağlılıq və başqa yüksək mənəvi keyfiyyətlər öz təcəssümünü tapmışdı. Zərifə xanım Əliyeva Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professor, Görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Surə Rəhimova görkəmli akademikin Azərbaycanda gözün iltihabı və buynuz qişasını zədələyən, ağır nəticələrə, hətta tam korluğa səbəb olan traxoma xəstəliyinin müalicəsində və profilaktik tədbirlərin təşkilində fəal iştirakından söz açıb. Bildirilib ki, akademik Zərifə xanım Əliyevanın qazandığı elmi uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. İstedadlı alim oftalmologiyanın aktual mövzuları üzrə çoxprofilli tədqiqatlar apararaq dəyərli elmi-tədqiqat əsərləri ərsəyə gətirmiş, apardığı tədqiqatların gedişində onlarla elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Dərsdə tanınmış şəxsiyyətlərin akademik Zərifə Əliyeva haqqında fikirlərindən sitatlar gətirilib. Vurğulanıb ki, böyük alimin həyatı, Vətəninə, xalqına sədaqəti, elmə xidməti, sahib olduğu insani məziyyətlər gənc nəsil üçün əsl örnəkdir.

İnteraktiv dərs muxtar respublikanın 200-ə yaxın ümumtəhsil məktəbinin şagirdləri tərəfindən dinlənilib.

***

Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında keçirilən tədbirin iştirakçıları əvvəlcə görkəmli akademikin poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoyub, onun xatirəsinə həsr olunmuş guşədə böyük alimin həyat və fəaliyyətini əks etdirən foto və kitablar, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva qeyd edib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir. Milli oftalmologiyanın banisi akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir.




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova "Akademik Zərifə xanım Əliyeva fədakar insan, əsl Azərbaycan qadını kimi", Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Səadət İbrahimova "Zərifə xanım Əliyeva insanlara nur bəxş edən ləyaqət simvolu kimi", Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsinin bölmə müdiri Kəmalə Əliyeva "Zərifə xanım Əliyevanın ictimai fəaliyyəti və Azərbaycan səhiyyəsinə verdiyi töhfələr" mövzusunda məruzələr ediblər.

Çıxışlarda bildirilib ki, ömrünü tibb elminə həsr edən görkəmli alim Zərifə xanım Əliyeva oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib.

Tədbirdə vurğulanıb ki, akademik Zərifə Əliyevanın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini alıb. O, bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Onun zəngin pedaqoji və elmi təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapıb. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir.

Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib. Onun işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Tədbirdə Naxçıvan Qızlar Liseyinin şagirdlərinin ifasında görkəmli alimə həsr olunmuş şeirlər dinlənilib, sənədli filmə baxılıb.

***

"Naxçıvan" Universitetində keçirilən konfransda universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, Zərifə Əliyevanın fəaliyyəti çox zəngin və çoxşaxəlidir. O, Azərbaycan elminin əsl fədaisi olaraq elmi daim inkişaf etdirib. Eyni zamanda biz onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı da görürük. Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər də Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir.

Vurğulanıb ki, Azərbaycan oftalmologiyasının bugünkü inkişafı həm klinik, həm elmi baxımdan Zərifə xanımın adı ilə bağlıdır və onun elmi istiqamətlərinin bir hissəsidir. Akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, Azərbaycan tibb elminin parlaq səhifələridir. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

Sonra Təbiət elmləri kafedrasının müəllimləri Aynurə Qulamova və dosent Həmidə Seyidovanın akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyəti ilə bağlı məruzələri dinlənilib. Kimya biologiya müəllimliyi ixtisasının IV kurs tələbəsi Sənan Düniyev isə "Zərifə xanım Əliyevanın zəngin həyat yolu bugünkü və gələcək nəsillər üçün örnək və yaşam etalonudur" mövzusunda çıxış edib.

Konfransda Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən videoçarx izlənilib, sərgiyə baxış olub.

***

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümü ilə əlaqədar alimin adını daşıyan Şahtaxtı kənd tam orta məktəbində tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları görkəmli akademikin məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə yaxından tanış olublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Heyran Əhmədova çıxış edərək bildirib ki, Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprel ayının 28-də Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirib. 1950-ci ildə aspiranturaya daxil olub, aspiranturanı bitirdikdən sonra respublika Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda elmi işçi vəzifəsində çalışıb.

Görmə orqanının patologiyası Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil edib, 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilib. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb.

Heyran Əhmədova bildirib ki, böyük xidmətlərinə, çoxillik elmi – tədqiqat işlərinə görə Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib. O, bir sıra orden və medallara layiq görülüb, "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adını alıb. Akademik respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verib.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova, Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin direktoru Ehtimad Məmmədov çıxış ediblər. Sonda məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri bədii qiraət ediblər, akademikin həyat və fəaliyyəti ilə bağlı filmə baxış olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan teatrına "milli" statusu verilib

*Aprelin 28-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu münasibətlə tədbir keçirilmişdir.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək demişdir ki, Naxçıvan teatrı milli teatrımızın inkişafında mühüm rol oynamış, ictimai fikrə və ədəbi mühitə güclü təsir göstərmiş, görkəmli dramaturq, rəssam, aktyor və teatr təşkilatçıları yetirmişdir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, teatr binaları yenidən qurulmuş və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında da yenidənqurma işləri aparılaraq 2012-ci ildə istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan teatrı fəaliyyət göstərdiyi bütün dövrlərdə mütərəqqi ideyalara söykənmiş, günün aktual məsələlərinə nüfuz etmiş, xalqın milli oyanışına çalışmışdır. Bu sənət ocağı Azərbaycan, Avropa, eləcə də dünya ədəbiyyatının və incəsənətinin qabaqcıl ənənələrindən və nailiyyətlərindən bacarıqla faydalanmışdır. Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu gün də klassik və müasir teatr ənənələrini davam və inkişaf etdirir, ictimai əhəmiyyəti ilə seçilən uzunömürlü səhnə əsərləri yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 29 oktyabr tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "Aparıcı teatr" statusu verilmişdir.



Ülvi Hüseynli bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli teatr" statusunun verilməsi məsələsinə baxılmışdır. Teatrlara "milli" statusu milli mədəniyyətin təbliği sahəsində müstəsna xidmətlərinə görə, onların uzun illər səmərəli fəaliyyətinə, ölkə daxilində və xaricdə əldə etdiyi nailiyyətləri nəzərə alınmaqla verilir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı "Milli" statusunun alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə təşəbbüslə müraciət etmişdir. Mədəniyyət Nazirliyi tərəfindən müvafiq komissiya yaradılaraq təşəbbüsə baxılmış, komissiyanın müvafiq təqdimatın verilməsi barədə rəyi nazirliyin kollegiyasında müzakirə olunmuş, müvafiq sənədlər toplanaraq təqdimat məktubu ilə birlikdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə göndərilmişdir. Bundan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Azərbaycan Respublikası Nazirlər Kabinetinə məsələ ilə bağlı təqdimat vermişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli Qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aparat rəhbəri Aləm Bağırov bildirmişdir ki, "Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların "Akademik" və "Milli" statuslarına təqdim olunması Qaydası"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 17 mart 2022-ci il tarixli 69 nömrəli Qərarı olmuşdur. Qərarda muxtar respublikada fəaliyyət göstərən teatrlara "akademik" və "milli" statuslarının təqdim olunması üçün tələblər, statusların verilməsinə dair təqdimat və həmin statusları almış teatrların maliyyələşdirilməsi Qaydaları təsdiq edilmişdir. Həmin Qərarın Qaydalarında göstərilən tələblərə uyğun olaraq "milli" statusunun verilməsi məsələsinə baxılmışdır. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verildiyi üçün qanunvericiliyə əsasən teatrın işçilərinin əmək haqqına 2022-ci il mayın 1-dən 50 faiz məbləğində əlavə ödəniləcəkdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova demişdir ki, Azərbaycan teatrı salnaməsinə parlaq səhifələr yazan Naxçıvan Dövlət Musiqili Dram Teatrı zəngin sənət ənənələrinə malikdir. 1883-cü ildə fəaliyyətə başlamış teatrın təşəkkülü və inkişafında ölkəmizin görkəmli ədəbiyyat və incəsənət xadimləri yaxından iştirak etmişlər. XX əsrin 20-ci illərində Naxçıvan teatrı yeni inkişaf mərhələsinə qədəm qoymuş, Naxçıvan aktyorları vahid truppada birləşmiş və 1922-ci ildə Dövlət Dram Teatrı yaradılmışdır. Müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənmiş, kollektiv milli dəyərlərimizin peşəkar təbliğatçısına çevrilmişdir. Bu illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrı Azərbaycanda və müxtəlif xarici səfərlərdə öz tamaşaları ilə teatrsevərlərin rəğbətini qazanmışdır. Müstəqillik illərində teatrın tamaşaya qoyduğu dramlar üslub, struktur və janr müxtəlifliyi ilə seçilir və bu da teatrın axtarışlarının düzgün istiqamətdə inkişaf etdiyinin göstəricisidir. Natavan Qədimova Naxçıvan teatrına "milli" statusunun verilməsinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mədəniyyət ictimaiyyəti adından minnətdarlıq etmişdir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev bildirmişdir ki, bu gün teatrın tarixində çox əlamətdar bir gündür. 139 yaşlı Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusunun verilməsi dövlətimizin mədəniyyətimizə göstərdiyi böyük qayğının göstəricisidir. Hərtərəfli qayğı ilə əhatə olunmuş Naxçıvan teatrında 3 xalq artisti, 5 "Azərbaycan Respublikasının Əməkdar artisti", 3 "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 1 "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi", 1 "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı", 2 "Tərəqqi" medallı aktyor, bir nəfər isə Prezident mükafatçısı var. Teatrımıza yeni statusun verilməsi isə üzərimizə daha böyük məsuliyyət qoyur. Göstərilən etimada görə dövlətimizə minnətdarlığımızı bildirir, teatrımızın inkişafı üçün bundan sonra da səylə çalışacağımıza söz veririk.

Sonra "Azərbaycan Respublikasının Xalq artisti" Kamran Quliyev, "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti" Səməd Canbaxşıyev, gənc aktyor Mehri Nəbiyeva çıxış edərək göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

**"Şərq qapısı"**

---

*Turizm növlərinə görə təsnif olunduqda inkişaf etdirildiyi bölgənin sahib olduğu resurslara görə müəyyən edilir. Bu baxımdan bütün dünyada tanınan və kütləvi turizm məqsədilə istifadə edilən bir sıra turizm növləri vardır ki bunlar ənənəvi turizm növləri adlanır. Rekreasiya, müalicə, tanışlıq, işgüzar ekoturizm, ziyarət, kənd turizmi və digər turizm növləri, bu mənada, bütün dünyada olduğu kimi, ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasıda da müəyyən səviyyədə yayılmışdır. Naxçıvanın sahib olduğu təbii ehtiyatlar və yaradılmış infrastruktur şəraiti ilin müəyyən dövründə, yaxud mövsümdən asılı olmayaraq, bu turizm növlərinin inkişafına şərait yaradır.*

*Estafet*

# Naxçıvanda qeyri-ənənəvi turizm növlərinin inkişaf perspektivləri



Bunlarla yanaşı, dünyada nisbətən az turistin maraq göstərdiyi, ancaq gəlirlərinə və tanıtım gücünə görə seçilən bəzi turizm növləri vardır ki, bunlar ilin müəyyən bir dövründə, yaxud konkret bir ərazidə tətbiq olunmaqla həmin bölgə üçün xas olan unikal turizm potensialını ortaya qoyur. Belə turizm növləri qeyri-ənənəvi olmaqla turizmin yeni növlərinin yaranması və yeni imkanların öyrənilməsi baxımından əhəmiyyətlidir.

Dünyada mövcud olan 300-dən çox turizm növünə və yarımnövünə baxdıqda bunlar arasında unikallığı, qeyri-adiliyi və tanıtım gücü böyük olan xeyli sayda qeyri-ənənəvi turizm növlərini görmək olar. Kosmik turizm, alp turizmi, qütb turizmi, quşizləmə turizmi, qaya paraşütü, qaya və yamac paraşütü, herbari toplama, suya dalma və ya dayvinq, dağ çayında raftinq, arxeoloji tədqiqatlar üzrə turizm, şəhərətrafı infrastruktura baxış, batmış gəmilərin olduğu yerlərə dalma turizmi, mağara turizm, dəniz paraşütü, hava şarı turizmi, bəzi yemək növləri üzrə qastronomi turizm və digər turizm növləri qeyri-ənənəvidir.

Naxçıvan Muxtar Respublikası sahib olduğu unikal ehtiyatlar və müasir inkişaf səviyyəsi hesabına və eləcə də bölgəyə olan turist marağı baxımından qeyri-ənənəvi turizm növləri üçün də unikal məkandır. Belə ki, Naxçıvanda kosmik və ya qütb turizmi üçün potensial olmasa da, buradakı landşaft quruluşu, biomüxtəliflik, hidropotensial, kanat yolları, mineral suların sayı və mənşəyi, duz yataqları, sərt qayalar və panoramik görüntülü dağlar hesabına çox sayda qeyri-ənənəvi turizm növlərinin inkişafı haqqında danışmaq mümkündür. Qeyd edək ki, artıq bunların bəziləri Naxçıvanda tətbiq olunmuş və uğur qazanmışdır.

Naxçıvanın simvolu olan Haçadağ təbiət abidəsi kimi özünün tanışlıq dəyəri ilə yanaşı, alp turizm üçün də ideal məkandır. Təqribən, 2200 metr hündürlüyü olan bu dağın zirvəsinə qalxan yolun sərtliyi və zirvə nöqtəsindən Naxçıvanın görüntüsü çox sayda həvəskar dağçıları özünə çəkir. Hər il Xocalı soyqırımının ildönümündə qardaş Türkiyədən gəlmiş dağçılar və yerli ekstremal yürüş həvəskarları Haçadağın zirvəsində qardaş ölkənin ay-ulduzlu və üçrəngli Azərbaycan bayrağını birgə dalğalandırırlar.

Yamac və qaya paraşütü qeyri-ənənəvi turizm növləri kimi, xüsusən gənclər arasında yayılıb, həvəskar klublar şəklində dünyanın hər yerində, eləcə də ölkəmizdə mövcud olan yüksəkliklərdən uçmaqla tanınır. Naxçıvanda bu ilin qışında ilk dəfə olaraq Əlincəqalada yamac paraşütü həvəskarları tur təşkil etmiş və səmadan çəkilmiş görüntülərlə paylaşımlar edilmişdir.

Naxçıvandakı Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının ərazisində və eləcə də digər yerlərdə rast gəlinən unikal biomüxtəliflik həmişə turistlərin diqqətini çəkir və fotoovçuluq üçün yaxşı imkanlar yaradır. Şahbuz və Ordubad dağlarında belə turizm növü üçün ilboyu geniş imkanlar vardır.

Naxçıvan təbiəti həm köçəri, həm də qışlayan quşlar üçün əlverişli məkandır. Quşların yaşaması, bala verməsi və köçünü izləmək üçün xüsusi optik aparatlarla təchiz olunmuş həvəskar turistlər planetin hər yerində olduğu kimi, Naxçıvanda da belə növ müxtəlifliyi tapa bilirlər. Naxçıvanda fəaliyyət göstərən "Naxçıvantravel" şirkətinin 2017-ci ildə təşkil etdiyi geniş quşizləmə turunun təəssüratları bu baxımdan bölgəmizdəki geniş perspektivlərdən danışır.

Mağara turizmi və ya speleoturizm təbii qüvvə və ya insan əli ilə formalaşmış dərin mağaralara baxış əsasında təşkil olunur. Naxçıvandakı Duzdağ şaxtalarına, eləcə də Batabatdakı Fərhad evinə baxmaq üçün çox sayda həvəskar turist bölgəmizə səfər edir. Duzdağ şaxtalarının böyüklüyü və Fərhad evi mağarasının qədimliyi Naxçıvanda speleoturizm üçün əlverişli şərait yaradır.

Naxçıvanın bolsulu dağ çaylarında ilin yaz fəslində kiçik də olsa raftinq həyəcanı yaşamaq üçün imkanlar vardır. Arpaçay, Heydər Əliyev Su Anbarına qədər Naxçıvançay və Gilançay hövzələri gələcəkdə raftinq üçün istifadə oluna bilər.

Eləcə də Naxçıvandakı iri su anbarlarında, tutumu 150 milyon kubmetr olan Arpaçay və tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su anbarlarında həvəskar dalğıcların səfərləri üçün də hidroloji şərait vardır.

Naxçıvandakı saf ekoloji şərait və Günəşli günlərin sayı buradakı orqanik qida məhsulları ilə yanaşı, dərman bitkilərinin də çox yüksək keyfiyyətdə olmasına imkan yaradır. Dərələyəz silsiləsinin cənub yamaclarında və Şahbuz Dövlət Təbiət Qoruğunun digər yerlərində rast gəlinən unikal dərman bitkiləri toplamaq üçün hər il çox sayda herbari həvəskarları bölgəyə səfərlər edirlər.

Kanatla gəzmək və ərazini yüksəklikdən seyr etmək dünyanın bir çox yerlərində populyardır. Bu baxımdan Ağbulaq Xizək Mərkəzində yaradılmış, təxminən, 950 metr uzunluğunda kanat yol bura gəlmiş insanlar tərəfindən gəzinti üçün istifadə olunur.

Naxçıvan mətbəxi özünün dad-tamı ilə tarixən seçilib. Naxçıvanın ağartı məhsulları, dağ pencərlərindən hazırlanan kətələr, kabab çeşidləri, əriştə aşı, qovurma, eləcə də Naxçıvan pivəsini dadmaq üçün qastronomi həvəskarları olan turistlər də regionumuza səfər edirlər.

*Bütün bu qeyd etdiklərimizi ümumiləşdirib göstərə bilərik ki, qeyri-ənənəvi turizm növləri insanlar arasında geniş yayılıb kütləvi hala keçdikcə daha yeni və qeyri-ənənəvi turizm növləri də yaranıb inkişaf edir. Bu baxımdan doğma Naxçıvanımızın sahib olduğu potensial bundan sonra da araşdırmaçılar üçün maraqlı sahə olacaq.*

**Nilgün ABBASOVA**
***"Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə III kurs tələbəsi***

---

# Əməyin mühafizəsi günü ilə əlaqədar tədbirlər keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar seminar keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli bildirib ki, ulu öndərimiz ölkəmizə rəhbərliyi dövründə insanların sosial müdafiəsini, o cümlədən işçilərin hüquqlarının qorunmasını və əməyin mühafizəsini daim diqqət mərkəzində saxlayıb, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar həyata keçirib. Qeyd olunub ki, əməyin mühafizəsindən danışarkən, ilk növbədə, gözlərimiz önündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi mənzərəsi dayanır. İnsanların rahatlığına xidmət edən hamar yollar, sağlamlığımız naminə yaradılan yaşıllıqlar, tikilən körpülər, elm, mədəniyyət, səhiyyə, təhsil ocaqları, idman şəbəkələri, istehsal müəssisələri və hər il həyata vəsiqə alan yüzlərlə yeni tikililər günümüzün reallıqlarıdır. Doğma Naxçıvanımızda aparılan bu məqsədyönlü islahatların kökündə muxtar respublika vətəndaşlarının rahatlığı, səmərəli məşğulluğu, onun üçün yaradılan sağlam və layiqli iş yeri, əmək şəraiti, əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması və təhlükəsizliyi dayanır.

Çıxışlarda bildirilib ki, muxtar respublikamızda əməyin təhlükəsizliyi və mühafizəsi istiqamətində işçilər üçün sağlam və təhlükəsiz əmək şəraiti yaradılıb.

**✍ Aytac CƏFƏRLİ**

* * *

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində "Əməyin mühafizəsinə dair ümumi tələblər" mövzusunda seminar keçirilib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə təşkil olunan seminarda Rabitə və Yeni Texnologiyalar Nazirliyinin aparatının məsləhətçi-hüquqşünası Aygül Mirzəyeva ölkəmizdə əməyin mühafizəsi, sosial müdafiə məsələləri ilə bağlı formalaşdırılan qanunvericilik prinsiplərindən danışıb.

Çıxışda Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən işçilərin əmək şəraitinin yaxşılaşdırılması, əmək hüquqlarının qorunması məsələlərinin hər zaman diqqət mərkəzində saxlanılmasından və bu istiqamətdə görülən tədbirlərdən bəhs edilib.

Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşı Cavad Cavadov slayd vasitəsilə əməyin mühafizəsinə dair ümumi tələblər barəsində ətraflı məlumat verib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*El arasında “Yolun açıq olsun!” sözlərini, adətən, kimsə harasa gedəndə deyirlər. Ancaq bu sözün həm də müxtəlif məna çalarları var. Yol barədə mövcud olan bir sıra aforizmlər bunun ən gözəl nümunəsidir. Məsələn, “Xoşbəxtliyin yolu zəhmət və cəsarətdən keçir” (Balzak), “Əgər getdiyiniz yolda çətinlik və maneələr yoxdursa, bilin ki, o yol sizi heç yerə çatdırmaz” (Bernard Şou), “Allahı sevməyin yolu onun yaratdıqlarını sevməkdən keçir” (Əbu Turxan), “Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil” (Konfutsi) və sair...*

# Yolunuz açıq olsun!



Bu yollar içərisində bir yol da var: İNKİŞAF YOLU. Bu gün Naxçıvan Muxtar Respublikasının mediası da göstərilən diqqət və qayğı sayəsində məhz bu yolla irəliləyir. Həqiqətən də, ötən müddət ərzində mediamız böyük inkişaf yolu keçib. 101 il bundan əvvəl – 1921-ci ildə muxtar respublikanın mərkəzi mətbuat orqanı olan “Şərq qapısı” qəzeti, 90 il bundan əvvəl – 1932-ci ildə Radio Verilişləri Komitəsi, 1963-cü ildə Naxçıvan televiziyası, 2001-ci ildə “Naxçıvanın səsi” radiosu, 2004-cü ildə “Kanal 35” televiziyası, 2018-ci ildə isə “Nuhçıxan” İnformasiya Agentliyi yaradılıb və bu gün onlar ölkəmizin media məkanında özünəməxsus yerə malikdirlər. Bütün bunlar həm də muxtariyyətimizin bəhrələridir. Çünki muxtariyyətimiz olmasaydı, Naxçıvanda media orqanlarının yaradılması və inkişafı üçün lazımi şərait də olmayacaqdı...

Hər bir media orqanımız müxtəlif illərdə, müxtəlif günlərdə yola çıxsa da, onların amalı, məqsədi birdir: Naxçıvanın ictimai-siyasi və iqtisadi həyatı, həmçinin elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və digər sahələri barədə dəqiq və operativ informasiyaları ictimaiyyətə çatdırmaq, zəngin və çoxçalarlı yazılı salnamə və videoarxiv yaratmaqdır. Fəaliyyətin əsasında isə vicdanlılıq, qərəzsizlik, obyektivlik, peşəkarlıq prinsipləri dayanır. Bu yolda inamla addımlayan media orqanlarımız arasında “Kanal 35” televiziyasının və “Naxçıvanın səsi” radiosunun da özünəməxsus yeri vardır...



Bu arada, qeyd etmək istərdim ki, təhsilə göstərilən diqqət həm bu günümüzə, həm də gələcəyimizə göstərilən diqqətdir. Təhsil elə strateji bir sahədir ki, bununla, bütövlükdə, milli yüksəlişə nail olmaq mümkündür. Bu, faktdır ki, müasir dövrümüzdə təhsildə yalnız müasir texnologiyalara əsaslandıqda, informasiya resurslarından səmərəli istifadə olunduqda yüksək səviyyəli gənc kadrların yetişməsi mümkündür. Məhz bütün bunlar uzaqgörənliklə diqqətdə saxlanılıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib.

2021-ci il yanvarın 1-dən “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosu muxtar respublikadakı təhsil yenilikləri ilə bağlı televiziya və radio proqramları hazırlayıb efirə təqdim edir.

Televiziya ötən müddətdə fəaliyyət istiqamətini müvafiq qanunvericiliyin tələblərinə uyğun qurub, öz yayım profilini təhsil və tədrisyönümlü yaradıcılıq üzərində kökləyib. Muxtar respublikada təhsil yenilikləri, həyata keçirilən təhsil



islahatları və təhsil quruculuğu televiziyanın əsas yaradıcılıq bazasını təşkil edib. Bu mənada, televiziya efirində yayımlanan “Təhsil quruculuğu”, “Təhsilə dair”, “Mütaliə vaxtı” verilişləri muxtar respublikanın təhsil ictimaiyyətinin, şagird və tələbə kontingentinin marağını əks etdirməyi bacarıb, daim izlənilən verilişlər sırasında yer alıb. Televiziyanın təhsil profilli digər maraqlı layihəsi “Uğur yolu” telelayihəsidir. Verilişdə muxtar respublikanın təhsil müəssisələrində bilik və istedadı ilə fərqlənən şagirdlərin idman və təhsil sahəsində qazandıqları uğurlar tamaşaçıların diqqətinə çatdırılmaqdadır. “Kanal 35” televiziyasının ölkə telemakanında həyata keçirdiyi yeniliklərdən biri isə açıq və interaktiv dərslərin yayımını həyata keçirməkdir. Bu mənada, “Açıq dərs” və “İnteraktiv dərs” verilişlərinin adını qeyd etmək lazımdır.

Təhsil Nazirliyinin tabeliyinə keçdikdən sonra “Naxçıvanın səsi” radiosu da öz işini təhsilyönümlü qurmağa nail olub, yeni-yeni layihələrlə dinləyicilərin diqqət və marağını çəkməyi bacarıb. Təhsilyönümlü proqramlar içərisində “Məktəb illəri”, “Salam Naxçıvan”, “Hər şey bizdə”, “Şənbə söhbətləri” və adını çəkmədiyimiz digər radioverilişlər dinləyici kütləsi qazanmağa nail olub.

Ölkənin ilk təhsil televiziyası olan “Kanal 35” televiziyasının və “Naxçıvanın səsi” radiosunun fəaliyyətində böyük yenilik yaradacaq, ekran vizuallığını daha da artıracaq və təhsil ictimaiyyətinin maraqlarını əks etdirəcək mühüm hadisələr gerçəkləşib. Bunlardan biri müasir üslubda dizayn edilən yeni efir studiyasının təqdim edilməsi, digəri isə yeni saytın fəaliyyətə başlamasıdır. Öncə onu qeyd edim ki, yeni studiya öz müasir üslublu görkəmi ilə burada müxtəlif mövzulu studiya verilişlərinin hazırlanmasına imkan verəcəkdir. Belə ki, “Sağlam həyat”, “Təhsilə dair” kimi şəbəkə verilişlərinin artıq yeni studiyada təqdim edilməsi televiziyanın vizuallığına müsbət təsir göstərib. Ötən zamanlarda televiziya əməkdaşları veriliş çəkilişlərini virtual studiya, yaxud müxtəlif ünvanlarda həyata keçirirdilərsə, artıq yeni studiya sayəsində bütün bu çətinliklər geridə qalacaq, studiya sistemli maarifçilik işinin aparılmasına mühüm töhfə verəcəkdir.

Qısa zaman çərçivəsində öz yaradıcı fəaliyyətində, müsbət mənada, ciddi dönüş yaradan kollektiv sosial şəbəkə platformalarında da aktivliyini qoruyub, hazırlanmış veriliş və proqramlar müxtəlif sosial şəbəkə platformalarında, o cümlədən “sosial şəbəkə nəhəngi” adlandırılan “YouTube”da yerləşdirilib. Bu da televiziya tamaşaçılarının izləyə bilmədiyi mühüm materialları qismən izləməyə imkan verir, radionun daha sosial şəbəkə istifadəçiləri tərəfindən dinlənilməsinə şərait yaradırdı.

İstifadəyə verilən yeni sayt isə televiziya və radio üçün daha geniş imkanlar açır. Belə ki, saytın fəaliyyətə başlaması təhsil ictimaiyyətini və ümumtəhsil məktəblərində təhsil alan şagirdləri maarifçilik işinə, sağlam böyümə amalına, vətənpərvərlik hissinə, tariximizə və milli-mənəvi dəyərlərimizə daha yaxın etdi. Ümidvarıq ki, yaradılan bu şərait əməkdaşların üzərindəki məsuliyyəti daha da artıracaq, proqram siyasətində sistemli işin aparılması diqqət mərkəzində saxlanılacaq və televiziya yeni layihələrlə, təhsilyönümlü proqramlarla tamaşaçıların, dinləyicilərin daha çox rəğbətini qazanacaqdır.

Saytın fəaliyyətə başlamasının digər bir mühüm ictimai təsiri ondan ibarət olacaq ki, onun vasitəsilə muxtar respublikanın təhsil sahəsindəki yüksək potensialı, bu sahədə yaradılmış mükəmməl infrastruktur, təhsildə əldə edilmiş yeniliklər daha geniş kütləyə çatdırılacaqdır. Həmçinin ölkəmizin digər bölgələrində yaşayan şagird və müəllimlər də sayt vasitəsilə “Kanal 35” televiziyasını izləyə, “Naxçıvanın səsi” radiosunu isə dinləyə biləcəklər. Yəni bu o deməkdir ki, hər iki əhəmiyyətli informasiya resursu artıq ölkə miqyasında da təhsilin inkişafına töhfə vermək qüdrətinə qovuşur.

Təbii ki, bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikanın kütləvi informasiya vasitələrinə göstərdiyi yüksək diqqət və qayğının nəticəsində mümkün olmuşdur. Biz bunun növbəti nümunəsini təhsil televiziyası və radiosunun internet saytının və müasir studiyasının istifadəyə verilməsində görürük. Muxtar respublikamızın mediasının inkişafına göstərdiyi qayğıya görə biz media nümayəndələri Ali Məclisin Sədrinə daim minnətdarıq.

*Hər iki əlamətdar hadisə münasibətilə Televiziya və Radio Verilişləri Redaksiyasının kollektivini təbrik edir, fəaliyyətlərində yeni-yeni uğurlar arzulayırıq. Əziz həmkarlarımıza “Yolunuz açıq olsun!” deyirik.*

**Rauf KƏNGƏRLİ**
*jurnalist*

## Gənc məşqçilərə bəslənilən etimad bəhrəsini verir



*Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və nazir müavini Məcid Seyidov Naxçıvan şəhərindəki kikboksinq bölmələrindən birində olub, idmançıların hazırlıq səviyyəsi və yaradılan şəraitlə maraqlanıblar.*

Məşqçi Cəbrayıl Qəribov məlumat verib ki, kikboksinq bölməsi 2 ilə yaxındır, fəaliyyət göstərir. Hazırda fərdi və qrup halında olmaqla, 80-dən çox uşaq, yeniyetmə və gənc burada idmanla məşğul olur. Həftəiçi bütün günlər məşğələlər keçirilir. Qardaş ölkə Türkiyədə peşəkar idmançı karyerasını başa vurduqdan sonra məşqçiliyə başladığını, bir müddət sonra isə fəaliyyətini doğma Naxçıvanda davam etdirmək qərarına gəldiyini deyən Cəbrayıl Qəribov əlavə edib ki, hazırkı məkan icarəyə götürülərək təmir olunmuş, Naxçıvan Kikboksinq Federasiyasının dəstəyi ilə birgə zəruri avadanlıq və inventarlarla təmin olunaraq idman zalına çevrilmişdir. Qeyd olunub ki, bölmənin idmançıları muxtar respublika və ölkə səviyyəli yarışlarda qənaətbəxş nəticələrə nail olublar. Mövcud potensiallar uğurlu nəticələr üçün böyük zəmin yaradır.

İdmançıların məşq prosesini izləməklə bərabər, zalda yaradılan şəraitlə yaxından tanış olan Ramil Hacı gənc məşqçiyə uğurlar arzulayıb, fəaliyyətin təkmilləşməsi istiqamətində fikirlər səsləndirib.

Qeyd edək ki, intensiv və effektiv işləmə mexanizminə nail olmaq üçün idman obyektlərində və məşq bölmələrində işin düzgün təşkili prioritet məsələ kimi aktuallığını qoruyur. Nazirlik muxtar respublikanın idman ictimaiyyətini və gənc təbəqəsini mövcud imkanlardan, yaradılan əlverişli şəraitdən düzgün və səmərəli istifadə olunmasına sövq edir, problem və çatışmazlıqların təhlilini apararaq müvafiq məsələlərin həlli istiqamətində səylərini davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici tədbir



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində “Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti” publik hüquqi şəxsin təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilib. Tədbiri giriş sözü ilə daxili işlər nazirinin müavini Zahid Gözəlov açıb.

Sonra dövlət sığorta xidmətinin müavini Musa Əliyev bildirib ki, tədbirin məqsədi vətəndaşlar arasında icbari və könüllü sığortaya olan maraq və inamın artırılması və sığorta növlərinin inkişaf etdirilməsidir.

Tədbirdə xidmətin əməkdaşlarından Vüsal Ağayev, Amil Məmmədov, Mehdi Bağırov çıxış edərək fiziki şəxslərə məxsus olan əmlakların və heyvanların sığortaları, fərdi qəza sığortası, avtomobil nəqliyyat vasitələrinin tam sığortası və daşınmaz əmlakın icbari sığorta növlərinin icrası ilə bağlı ətraflı məlumat veriblər.

Sonda suallar cavablandırılıb, sığorta növlərinə dair 400 ədəd buklet və broşür paylanılıb.

## Elektron taksi xidmətinin tərkibində sifarişlə xidmət sahəsi yaradılıb



Bu münasibətlə keçirilən tədbirdə “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev çıxış edərək bildirib ki, elektron taksi xidmətinin yaradılması ilə müştərilər əlavə vaxt itirmədən sərfəli qiymətə və rahat şəkildə bütün telefon operatorlarından *288* qısa nömrəsinə zəng etməklə, həmçinin mobil tətbiq vasitəsilə taksi sifariş edə bilirlər.

Qeyd olunub ki, elektron taksi xidməti operativlik və dəqiqlik tələb edən xidmət sahəsidir. Proqram vasitəsilə sifarişin dəyərinin avtomatik hesablanması, sifarişlərin sürücülər arasında paylanması, tariflərin rahat tənzimlənməsi, sürücü sərnişin arasında şəffaflığın təmin olunmasına şərait yaradır və sərnişinin etibarlı şəkildə son məntəqəyə çatdırılmasını təmin edir. Elektron taksi xidməti tez bir zamanda əhalinin marağına səbəb olub, ətrafına kifayət qədər sərnişin yığa bilib. Ötən müddət ərzində elektron taksi xidmətinin fəaliyyətində yenilik olub, sərnişinlərə kuryer xidməti göstərilməsi təşkil edilib.

Sonra yeni sifarişlə xidmət sahəsində işlə təmin olunan sürücülər adından Elvin Mahmudov çıxış edərək yaradılan şəraitə görə minnətdarlıq edib.

***Xəbərlər şöbəsi***

## Mədəniyyət müəssisələrinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi keçirilir



Muxtar respublikada ilk dəfə olaraq Mədəniyyət Nazirliyinin tabeliyindəki qurumlara işə qəbul üçün müsabiqənin müsahibə mərhələsinin keçirilməsi üçün müvafiq komissiya yaradılıb. Müsahibə komissiyasının tərkibi nazirlikdən 1, mərkəzdən 1, mədəniyyət sahəsi üzrə mütəxəssislərdən müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarətdir. Müsahibə mərhələsində namizədin praktik hazırlığı və peşəkarlıq qabiliyyəti yoxlanılır.

Müsahibə komissiyası namizədlərin ixtisas bacarığını müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirir, hər bir namizəd üçün ümumi bal çıxarır və nəticələri “Namizədin qiymətləndirilməsinə dair bal cədvəli” ilə rəsmiləşdirir. Bu mərhələ üzrə ən sıx müsabiqə vəziyyəti Şərur Rayon Mədəniyyət Şöbəsi (16) və Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi (13) üzrə qeydə alınıb.

Müsahibədə 12 və ya daha çox bal toplamış namizəd bu mərhələdən keçmiş sayılacaq və müvafiq vəzifəyə təyin olunmaq üçün imtahan nəticələri nazirliyə təqdim olunacaq.

Qeyd edək ki, müsabiqənin test mərhələsində 191 namizəd iştirak edib, onlardan 69-u keçid balını toplayıb. 5 namizəd isə birbaşa müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

Dini-mənəvi dəyərlərimiz

# Elm dindən ayrıdırsa, uçurum, din elmdən ayrıdırsa, xurafatdır

## Naxçıvanda peşəkar dini və dünyəvi biliklərə malik kadr hazırlığı aparılır

*Nə qədər ki, var əlində fürsət,*
*Dərsinə eylə hər zaman diqqət.*
*Yetişibdir zəmani-elmü ədəb,*
*...Dini dünyanı elm edər abad,*
*Özünü eylə cəhldən azad.*

Görkəmli maarifpərvər Məhəmməd Tağı Sidqinin "Oğlum Məhəmmədə nəsihət şeirində"ki bu kiçik parçada da təlqin olunduğu kimi, insanı bütün sahələr barədə incə məqamlarınadək müfəssəl şəkildə hali edən, daxildəki "mən"i kəşf edərək hadisələrə, məsələlərə ağıllı, dərrakəli yanaşmanı, obyektiv mövqe tutub doğru fikir yürütməni öyrədən elm, təhsil dini-mənəvi dəyərlərin düzgün formalaşmasında da mühüm faktordur. Bəli, aqillər əbəs yerə demirlər ki, təhsil olsa hörmət, olmasa zillətdir. Müasir dövrümüzdə dünyanın ayrı-ayrı yerlərində din pərdəsi adı altında naqis məqsədlər güdən, insanları cahillik girdabına, xurafat mənqənəsinə yuvarlayan halları nəzərə alsaq, o zaman bu sahədə təhsilin, elmin, biliyin önəminin daha da çoxaldığı həqiqətinə varmış olarıq. Bu baxımdan ***"Biz bir dövlət kimi... Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq"***, – deyərək ölkəmizdə dini-mənəvi dəyərlərin savadlı, elmi potensialdan səmərəli istifadə etməklə qorunub yaşadılması naminə böyük işlər həyata keçirən ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu siyasətin bu sahədəki təntənəsi də muxtar respublikamızda ən yüksək səviyyədədir. Məhz cari il martın 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədəki Ali Məclisin Sədri cənab Vasif Talıbovun fəlsəfi kəlamlarla dolu dərin məzmunlu çıxışında deyilir: ***"...O cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır. Müdriklər də deyirdi ki, inkişaf yalnız elmə əsaslandıqda məqsədə tam çatmaq mümkün deyil. Çünki elmdə irəli gedib mənəviyyatda geridə qalan cəmiyyət, son nəticədə, irəli yox, geriyə gedir. Bu gün dünyanın bir tərəfində insanlar dini və milli dözümsüzlükdən, digər tərəfində təriqətlərarası qarşıdurma və terrorizmdən əziyyət çəkirlərsə, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında isə dini həmrəylik və tolerantlıq hökm sürür..."*** fikirlərində Naxçıvanda bu sahədə böyük inkişaf yolu keçildiyi bir daha öz təsdiqini tapdı. Bununla yanaşı, muxtar respublika rəhbəri tərəfindən verilən tapşırıq və tövsiyələrdə dinə elmi, şüurlu, təhsilli cəhətdən yanaşılmanın vacibliyi hər zamankı kimi yenə də ön plana çəkildi...

Müşavirədə sağlam dini təhsil sisteminin formalaşdırılması, bu sahədə kadr hazırlığının təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin icra mahiyyəti, eləcə də ötən illər ərzində görülən tədrisyönümlü işlərin əhəmiyyəti, qazanılan nailiyyətlər barədə söhbət açmaq üçün "Naxçıvan" Universitetinə yollandıq. Ali təhsil ocağının İlahiyyat kafedrasının müdiri ***Xəfayət Əliyeva*** söhbət zamanı bildirdi ki, 2015-ci ildən etibarən "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası üzrə bakalavr, 2020-ci ildən isə İslamşünaslıq ixtisası üzrə magistr pilləsində kadr hazırlığına başlanılıb. İlk tədris ilində 4 tələbə ilə fəaliyyətə başlayan ixtisasa 7 il ərzində 65 tələbə qəbul olub, 2015-ci ildən fəaliyyət göstərən İlahiyyat kafedrasında hazırda 10 müəllim çalışır. Dinşünaslıq ixtisası üzrə bakalavriat səviyyəsində 52, İslamşünaslıq ixtisasının magistratura pilləsində isə 1 tələbə təhsil alır. Ötən dövrdə universitetin Dinşünaslıq ixtisasını müvəffəqiyyətlə bitirən 13 tələbə ixtisaslarına uyğun fəaliyyət göstərir.

Ali Məclis Sədrinin müşavirədə dediyi ***"İslam elm və təhsilə, mənəvi saflığa çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu olmuşdur. Peyğəmbərimiz də elmi dinin nizamı kimi dəyərləndirmişdir. Müqəddəs kitabımız "Qurani-Kərim" də "Oxu" əmri ilə başlayır. Naxçıvanda elmə və təhsilə yüksək dəyər verilməsinin***



***başlıca səbəblərindən biri də onun mənəviyyatımızla sıx bağlı olmasıdır. Belə bir yanaşma da var ki, elm dindən ayrıdırsa, uçurum, din elmdən ayrıdırsa, xurafatdır. Buradan o nəticəyə nail oluruq ki, sağlam mənəviyyatın formalaşdırılmasının ikinci yolu – elmlə dinin vəhdəti günün tələbidir..."*** fikirlərini xatırladan Xəfayət müəllim vurğuladı ki, ali və orta ixtisas təhsili müəssisələrində dini-mənəvi dəyərlər, İslam tarixi və əxlaqın əsas prinsipləri barədə mühazirələrin təşkil edilməsi, eləcə də kadr hazırlığının təkmilləşdirilməsi, tədris proqramında elmi ədəbiyyatlara, xüsusilə də "Qurani-Kərim"in təfsirlərinə üstünlük verilməsi, mənəvi dəyərlərimizin mahiyyətinə uyğun kitabların tərcümə edilərək gənc nəslə çatdırılması qarşıya vəzifə kimi qoyulub. Bütün sadalanan tapşırıqların hər biri gənclərin dini təsəvvürlərinin, biliklərinin artırılmasına və bu sahədəki sağlam ictimai şüurun formalaşmasına, mütəxəssis hazırlığına xidmət edir. Kafedranın bütün pedaqoji kollektivi xalqımızın əsrlər öncə yaranan dini dünyagörüşünü və tolerant düşüncəsini düzgün şəkildə tələbələrə aşılamaqda öz üzərinə düşən məsuliyyəti dərindən dərk edərək dövlətimizin bu ali məqsədinin reallaşması yönündə bundan sonra da əlindən gələni əsirgəməyəcək.

Xəfayət Əliyeva qeyd etdi ki, universitetdə Dinşünaslıq ixtisasında İslam dininin tədrisinə dair Ərəb dili, Quran oxu və təcvid, Hədis, Təfsir, Fiqh, Kəlam, Təsəvvüf kimi fənlərlə yanaşı, dinləri sosioloji, psixoloji, fəlsəfi və tarixi aspektlərdən tədqiq edən fənlərin də tədrisi aparılır. Eyni zamanda ölkəmizdə əsası ulu öndərimiz tərəfindən qoyulan multikulturalizm və tolerantlıq siyasətinə, bərabər hüquq prinsiplərinə uyğun olaraq ötən tədris ilindən digər aparıcı dünya dinlərinin – xristianlıq, yəhudilik, buddizmin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, eləcə də fəlsəfə, sosiologiya, multikulturalizm kimi sosial, humanitar elmlər də tələbələrə öyrədilir. Təbii ki, Dinşünaslıq ixtisası üzrə kadr hazırlığında əsas əhəmiyyət kəsb edən məsələlərdən biri də dini-tədris ədəbiyyatları ilə təminatdır. Çünki sağlam dini-ideoloji təfəkkürə malik kadr hazırlığı aparılırsa, o zaman əsaslı elmi ədəbiyyatlara istinad edilməlidir. Bu mənada, hazırda "Naxçıvan" Universitetinin elmi kitabxanasında 1393 adda 2243 dini ədəbiyyat müəllim və tələbələrin istifadəsinə verilib. Həmçinin Dinşünaslıq ixtisasının tələbələrinə Sarvanlar məscidində "İslam elmi halı" mövzusunda praktik dərslərin keçilməsi, həmin ixtisas üzrə kitabxananın müvafiq ədəbiyyatlarla zənginləşdirilməsi də bu sahədəki diqqətin bariz ifadəsidir.

Kafedranın iş prinsipi ilə tanışlıq zamanı öyrəndik ki, Ali Məclis Sədrinin müvafiq sərəncamlarına əsasən Dinşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinə hamiliyə verilib. Məqsəd xalqımızın tarixi ənənələrinə söykənən və dövlət siyasətinin mühüm bir hissəsini təşkil edən yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişaf etdirilməsi və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Bununla əlaqədar mütəmadi şəkildə dini tərbiyəvi tədbirlər, universitetdaxili kafedranın iş planında nəzərdə tutulan elmi-praktik konfranslar təşkil edilir, müəllim və tələbələrin məruzələri dinlənilir. Eyni zamanda agentliyin strukturu, iş prinsipi praktik şəkildə aşılanır.

Dinşünaslıq ixtisası üzrə fənlərin tədris proqramına, təlim metoduna nəzər saldıqda tələbələrə dinin elmi cəhətdən, savadlı, şüurlu şəkildə aşılandığını görmək mümkündür. Nümunə üçün bir neçəsinə nəzər salaq: İslam elmlərinin mənbəyi olan "Qurani-Kərim"i oxuyarkən dilin xətalardan qorunması və Məhəmməd Peyğəmbərdən (s.a.v) öyrənildiyi kimi oxuya bilməyi təmin etmək məqsədi daşıyan "Qurani-Kərim" əlifbası fənni ərəb dilindəki hərfləri məxrəclərindən xüsusiyyətləri ilə birlikdə düzgün tələffüz etməyi, təcvid qaydalarını "Qurani-Kərim"in bütün surələrinə tətbiq etməyi, müqəddəs kitabı oxuyarkən meydana çıxan xətaları təsbit edərək aradan qaldırmağı, namaz dualarını, "Qurani-Kərim"in müəyyən surələrini əzbər, təcvid qaydaları əsasında surələri üzündən oxumağı aşılayır. İslam tarixi fənninin məqsədi isə orta əsr İslam tarixinin sosial elmlərin bir sahəsi kimi, tarix elminin metodları çərçivəsində öyrənilməsi ilə yanaşı, İslam sivilizasiyasının təşəkkül prosesinə təsir etmiş amillər haqqında biliklər sisteminin yaradılmasıdır. Həmin dərsdə tələbələr İslamın yarandığı mühitin sosial, iqtisadi, siyasi və dini strukturunu, Məhəmməd Peyğəmbərin (s.a.v) şəxsiyyəti və fəaliyyətini, İslamın ilk dövrlərində qeyri-müsəlmanlarla münasibətlərinin hüquqi, sosial, iqtisadi və dini aspektlərini, Ərəbistan yarımadasının islamlaşma prosesini, İslam xilafətinin idarəetmə mexanizminin inkişaf tarixini, fəthlərin dini-siyasi səbəb və nəticələrini, İslam sivilizasiyasının ilkin təşəkkül prosesini və digər məqamları dərindən mənimsəyir. Bununla da onlar orta əsrlər İslam tarixinin ictimai, iqtisadi və mədəni sahələri haqqında təhlillər və müqayisələr aparmaq, siyasi hadisələrin gedişinə təsir edən ictimai, iqtisadi və digər səbəbləri analiz süzgəcindən keçirmək və İslam tarixinin müxtəlif dövrlərinin inkişaf mərhələlərini araşdırmaq bacarıqlarına malik olurlar. "Müqayisəli teologiya" isə dinlər üzrə inanc əsaslarının fərqini ayırd etməyi, səmavi dinlərin ilahiyyat və axirət düşüncələrinə aid prinsipləri müqəddəs kitablara əsasən təyin etməyi, teoloji problemləri müəyyənləşdirməyi, teoloji prinsiplərin yəhudi, xristian və müsəlmanların həyatında oynadığı rolu analiz etməyi düzgün şəkildə aşılayır. Ümumilikdə, ən əsas məqam isə tədris prosesi zamanı obyektiv yanaşmanın tətbiq edilərək tolerant düşüncənin formalaşdırılmasıdır ki, bu da tələbələri dünyada baş `verən dini ayrı-seçkiliklərə, xalqımızın mənəviyyatına, əxlaqına zidd cərəyanlara qarşı mübarizə aparmalarına, məsələlərə düzgün mövqedən yanaşmalarına xidmət edir.

Dinşünaslıq ixtisası üzrə tələbələrə muxtar respublikamızın tanınmış din xadimləri, eləcə Dini Qurumlarla İş



üzrə Dövlət Agentliyinin əməkdaşları ilə yanaşı, gənc müəllimlər də dərs keçir. Onlardan biri Bakı şəhərindən gələn ***Nərgiz Məmmədli***dir. "Naxçıvan" Universitetində müasir təlim metodlarının, ən yeni texnologiyaların, tədris avadanlıqlarının tətbiq olunduğunu vurğulayan Nərgiz müəllim dedi: "Hər birimizə məlumdur ki, insanın həyatdakı mövqeyinin müəyyənləşməsi baxımından yeniyetməlik və gənclik dövrü ən həssas məqamları ilə səciyyələnir. Yəni bu yaşda addımlar doğru atılarsa, insanı uğura, yanlış atılarsa, uçuruma aparar. Elə dini baxımdan da bu məqam olduqca önəmlidir. Məsələyə bu prizmadan yanaşanda təəssüflə qeyd etməliyik ki, son illərdə dünyada bəzi lüzumsuz, heç bir əsası olmayan dini təriqətlər yayılıb ki, həmin cərəyanlar da yeniyetmə və gəncləri daha asanlıqla öz təsirinə salmağa müvəffəq olurlar. Məhz buna görə də erkən yaşdan uşaqlara dini-mənəvi dəyərlərimizin düzgün şəkildə aşılanması vacibdir. Keçdiyimiz dərslərdə də tələbələrə dəyərlərimizə əks, yad olan ünsürlərdən uzaq qaçmağı, onlara qarşı mübarizə aparmağı əsaslı surətdə izah edir, səmavi dinləri düzgün şəkildə, hədisləri, ayələri doğru təfsirlə, faktlarla öyrətməyə çalışırıq. Fikrimcə, təhsilli bir tələbənin qazanılması onlarla sağlamdüşüncəli yeniyetmə və gəncin formalaşmasına, ümumilikdə isə cəmiyyətin bu sahədəki inkişafına təsir edir. Dinşünaslıq ixtisasını tədris edən bir müəllim kimi ən ali məqsədim də məhz budur..."

Universitetin Dinşünaslıq ixtisası üzrə təhsil alan tələbələrindən ***Fatimeyi-Zəhra Səfərova*** və ***Fəxri Əliyev*** qeyd etdilər ki, əvvəllər müəyyən qədər dini bilikləri olsa da, ali təhsil aldıqları müddətdə bu sahədə təfəkkürləri, dünyagörüşlərini daha da artırıblar. Tədris prosesində müqəddəs səmavi kitabların, dinlərin tarixi, məzmunu, dinin inanc, ibadət, əxlaq və digər ünsürlərinə dair yanaşmaları, sosial elmlərin bir sahəsi kimi dinlər tarixi elmini dərindən öyrənərək müqayisəli təhlil etmək bacarıqlarına yiyələniblər.

Fedor İvanoviç Yankoviç de Marievo deyirdi ki, müəllim şagirdlərin yaddaşına deyil, onların şüuruna müraciət etməli, sadəcə, əzbərləməyə deyil, dərk etməyə nail olmalıdır. Ələlxüsus da bu, dini təhsilə aiddirsə. Elə "Naxçıvan" Universitetindəki Dinşünaslıq ixtisasında tətbiq olunan tədris metodları, dərs proqramları ilə əyani tanışlıqdan, müəllim və tələbələrlə etdiyimiz qısa söhbətlərdən də belə qənaətə gəldik ki, burada gələcəyin ixtisaslı dini mütəxəssislərinin, xadimlərin yetişdirilməsi istiqamətində çox mühüm addımlar atılır, dinə elmi cəhətdən, faktlara söykənən yanaşma işi düzgün qurulub, müşavirədə qarşıya qoyulan vəzifələr isə şübhəsiz ki, həm kadr potensialının daha da təkmilləşməsinə, həm də dinin gənc nəsil arasında düzgün şəkildə təbliğinə böyük təkan verəcək.

✍ **Nail ƏSGƏROV**

## Dekorativ-tətbiqi sənət satış-sərgisi açılıb

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda dekorativ-tətbiqi sənət satış-sərgisi təşkil edilib.*



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Naxçıvanda dekorativ-tətbiqi sənətin xalçaçılıq, dulusçuluq (keramika), toxuma və bədii tikmə, zərgərlik, bədii oyma (ağac, metal, daş, sümük üzərində oyma) və digər növləri qədim zamanlardan yaranıb, formalaşıb və günümüzədək gəlib çatıb. Sevindiricidir ki, muxtar respublikamızda digər sənət növləri kimi, dekorativ-tətbiqi sənət də yaşadılır və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50-dən çox üzvü vardır ki, onların bir neçəsi dekorativ-tətbiqi sənətlə məşğul olur. Gənc rəssamlar bölməsinin üzvləri də bu sıraya daxildir. Bugünkü sərgi-satışda sırf bu sənət sahəsinə aid əsərlər nümayiş olunur. Bu sırada Naxçıvan duzundan və müxtəlif daşlardan qadınlar üçün bəzək əşyaları, Rəssamlar Birliyində toxunan xalçalar, heykəltəraşlığa dair və digər sənət nümunələri maraqlı və təqdirəlayiqdir.

Qeyd edək ki, 63 dekorativ-tətbiqi sənət əsərinin nümayiş olunduğu sərgi-satış bir həftə davam edəcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Bildiriş***

"Ümüd Elektrik" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 0200881691) fəliyyətini dayandırdığından ləğv edilir.

***İtmişdir***

Babək rayon Babək şəhər sakini Abbasova Səlbi Abbas qızının adına olan JN-234A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 361**